**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

**Q Ə R A R**
**№**

**Bakı şəhəri** **09 iyul 2021-ci il**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci ilin birinci yarımilliyi üçün İş Planının icra vəziyyəti və 2021-ci ilin ikinci yarısı üçün İş Planı haqqında**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Əsasnaməsində müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə 2021-ci ilin birinci yarımilliyi üçün İş Planını hazırlamış və həmin planda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində öz işini qurmuşdur.

Cari yarımil ərzində Komitə öhdəliyinə düşən 22 Dövlət Proqramının və eyni zamanda Milli Fəaliyyət Planlarının icrası istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

**Pandemiya dövrünün tələblərinə uyğun olaraq Komitənin prioritet istiqamətləri sahəsində tədbirlərin keçirilməsi**.

Komitə və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının birgə təşkilatçılığı ilə fövqəladə hal, xüsusi vəziyyət və pandemiya şəraitində ölkəmizdə mövcud olan qadın və uşaq sığınacaqlarında çalışan sosial işçilər və psixoloqlar üçün 3 günlük peşəkar inkişaf təlimi keçirilmişdir. Təlimlər bu sahədə təcrübəli olan peşəkar psixoloq və sosial işçi tərəfindən aparılmışdır. Təlimi uğurla bitirən iştirakçılar Komitə və Beynəlxalq Təhsil üzrə Amerika Şurası tərəfindən sertifikatla təltif edilmişdir.

Koronavirus pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tədbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək məqsədilə Komitənin təşəbbüsü ilə Mərkəzi Qan Bankında “Qan verək, həyat bəxş edək” aksiyası həyata keçirilmişdir.

**Müharibədən sonrakı dövrdə zərər çəkmiş əhali qrupu ilə müvafiq işlərin aparılması**.

Komitənin nəzdindəki 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən icmada yaşayan müharibənin nəticələrindən əziyyət çəkən ailələrə psixososial dəstək işi davam etdirilir. Mərkəzlərin fəaliyyəti nəticəsində 165 şəhid ailəsinə, 108 qazi ailəsinə səfər edilmiş, ilkin psixososial qiymətləndirmə aparılmış, ərzaq yardımı və digər zəruri gigiyenik vasitələr verilmişdir. 52 şəhid ailəsinə, 53 qazi ailəsinə, 23 əsgər ailəsinə psixoloji dəstək

göstərilmiş, şəhid ailələrindən olan 27 uşağın psixososial qiymətləndirilməsi aparılmış, 8 hərbçi, 4 şəhid, 5 qazi uşağı mərkəz xidmətlərinə cəlb olunmuşdur. Mərkəzlər tərəfindən 1 qazi əlil arabası və təkərli əsa ilə təmin edilmiş, 1 qazinin evinə qaz xəttinin çəkilməsi təmin olunmuşdur. Əlaqələndirmə nəticəsində 6 şəhid ailəsinin üzvləri, 1 qazi işlə, 2 qazi ailəsi evlə, 2 qazi ailəsi isə odun yanacağı və ev əşyaları ilə təmin edilmişdir. 90 şəhid övladına geyim əşyaları təqdim edilmişdir.

Postmüharibə dövründə ailələrə psixososial dəstəyin davam etdirilməsi məqsədilə 1 iyun 2021-ci il tarixindən başlayaraq Komitə tərəfindən Ağdam rayonunda 6-16 yaşlı 360 uşağın iştirak ilə layihə həyata keçirilmişdir.

Komitə, BMT-nin Uşaq Fondu (UNİCEF) və "ASAN Könüllüləri Gənclər Təşkilatı İctimai Birliyi ilə birgə müharibədən zərər çəkən ailə və uşaqlarla psixososial dəstək işinin aparılması məqsədi ilə Goranboy, Ağdam və Tərtər rayonlarında, eləcə də Gəncə şəhərində "Fövqəladə hallarda uşaq müdafiəsi" layihəsi həyata keçirir. Layihə çərçivəsində müharibədən zərər çəkən 1400-dən çox ailəyə səfər edilmiş, psixososial qiymətləndirilmə aparılmış, 2400 uşağın ilkin psixo-emosional vəziyyəti qiymətləndirilmiş, risk qrupunda olan uşaq və analarla fərdi və qrup terapiyası işi aparılmışdır.

**Qanunvericiliyin təkmilləşdirilməsi, digər normativ hüquqi sənədlərin hazırlanması və qəbul edilməsi nəzərdə tutulan Dövlət Proqramlarına dair rəy və təkliflərin verilməsi.**

Komitə tərəfindən **Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında** qanun layihəsi hazırlanmışdır. Layihədə "gender ekspertizası", "xüsusi tədbirlər" və "gender stereotipləri" kimi anlayışların tərifi verilmişdir. Bununla yanaşı layihəyə "Gender statistikası" ilə bağlı xüsusi maddə əlavə edilmiş, gender bərabərliyinin təmin edilməsinə nəzarət edilməsi barədə yeni qaydanın təsdiq edilməsi, həmçinin reklamların və kütləvi informasiya vasitələrinin gender ekspertizasının aparılması ilə bağlı normalar daxil edilmişdir. Qanun layihəsi Normativ Hüquqi Aktlar haqqında Konstitusiya Qanununa uyğun olaraq Nazirlər Kabinetinə göndərilmişdir.

"İşğaldan azad edilmiş ərazilərin 2021-2025-ci illər bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsinə, "Azərbaycanda qadınların məşğulluğu üçün hüquqi maneələrin aradan qaldırılması" ilə bağlı texniki dəstək çərçivəsində hazırlanmış Əmək məcəlləsinə dəyişikliklər edilməsi haqqında Qanun layihəsinə, "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması ilə bağlı fəaliyyət istiqamətlərinə dair layihə sənədinə, "Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin təkmilləşdirilminə dair Tədbirlər Planı"nın layihəsinə Komitə tərəfindən təkliflər bildirilmişdir.

**Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq beynəlxalq və milli səviyyədə qeyd edilən əlamətdar günlərlə bağlı tədbirlərin keçirilməsi.**

15 fevral - Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günü ilə əlaqədar Komitə, "Regional İnkişaf" İctimai Birliyi (RİİB), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi və Milli Onkologiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Böyük mübarizənin kiçik qəhrəmanları" adlı sosial layihə həyata keçirilmişdir.

Komitənin dəstəyi və Komitənin layihəsi olaraq yaradılan Uşaq Səfirlər Məclisinin təşəbbüsü ilə Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar beynəlxalq konfrans keçirilmişdir. Uşaq Səfirlər Məclisinin və "Türkiye Gençlik Vakfı"nın üzvləri ilə keçirilən konfransda Xocalı soyqırımı haqqında məlumatlar verilmişdir.

8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və Komitənin birgə təşkilatçılığı, 31 siyasi partiyanı təmsil edən 50-dən çox qadının iştirakı ilə "Siyasi dialoqda qadınların rolu" mövzusunda videokonfrans formatında tədbir keçirilmişdir.

15 may "Beynəlxalq Ailə Günü" ilə əlaqədar olaraq Komitə tərəfindən onlayn silsilə tədbirlər və görüşlər keçirilmişdir.

28 May Respublika Günü münasibətilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin və Komitənin birgə təşkilatçılığı, siyasi partiyaların rəhbərləri və nümayəndələri, millət vəkilləri, qeyri-hökumət təşkilatları, hüquq müdafiəçiləri, ziyalılar və tanınmış ictimai xadimlərin iştirakı ilə ilə "Dövlətçiliyi qoruyan dəyərlər: demokratik ənənələr və milli birlik" mövzusunda videokonfrans keçirilmişdir.

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Mənim səsim-mənim hüquqlarım" adlı dəyirmi masa keçirilmişdir. Tədbir Komitə, UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə əməkdaşlığı çərçivəsində cari ilin noyabr ayında reallaşdırılması planlaşdırılan Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun işinə start vermək məqsədilə keçirilmişdir. Dəyirmi masada Uşaq Səfirlər Məclisinin üzvləri iştirak etmiş, o cümlədən respublikanın 76 rayonunu təmsil edən, il ərzində fəallığı ilə seçilən, dövlət uşaq müəssisələrində yaşayan, habelə qeyri-millətlərdən olan uşaqlar karantin rejiminin qaydalarına uyğun olaraq onlayn şəkildə iştirak etmişdirlər.

Komitə tərəfindən 15 iyun Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşdan doğan Zəfər" mövzusunda tədbir və eyni zamanda bu gün münasibəti ilə "SİZİ TANIYAQ" adlı layihə həyata keçirilmişdir.

**Komitəyə daxil olan vətəndaş müraciətlərinə baxılması, təhlilin aparılması və aidiyyəti üzrə əlaqələndirilməsi ilə bağlı işlərin görülməsi.**

2021-ci il birinci yarımili ərzində Komitəyə 1718 vətəndaş müracəti, 664 xidməti məktub daxil olmuşdur.

Vətəndaş müraciətlərinin mövzular üzrə təhlilindən aydın olmuşdur ki, məhkəmə qərarlarının icra edilməməsi (384), məişət zorakılığı (148), müalicə və müayinə olunmaqda köməklik (116), müxtəlif yönümlü sosial müavinətlərin, yardımların, təqaüdlərin alınması (98) ilə bağlı müraciətlər üstünlük təşkil edir.

Komitəyə məişət zorakılığı ilə bağlı daxil olan 148 müraciət ilə bağlı yerli icra hakimiyyəti orqanlarından 86 cavab məktubu alınmış və bu cavab məktublarının təhlili aparılmışdır. Müraciətlər ilə bağlı lazımı tədbirlər görülmüş, yerli icra hakimiyyətlərinin Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə işçi qaydada əlaqə saxlanılmışdır.

**Komitənin fəaliyyət istiqamətləri sahəsində Media və vətəndaş cəmiyyəti, eyni zamanda Komitə nəzdində fəaliyyət göstərən İctimai Şura ilə işlərin aparılması, müvafiq sahələrdə maarifləndirici materialların hazırlanması və yayımlanması, sosial mediada fəaliyyətin gücləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi.**

Cari yarımil ərzində Komitə kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlıq etmiş və bir sıra mövzular ətrafında araşdırmalar aparmışdır.

Komitənin 15 illiyi münasibətilə "Ailə, qadın və uşaq siyasətində 15 il" adlı məqalə hazırlanmış və "azertag.az" informasiya portalında yayımlanmışdır.

Cəmiyyətdə baş verən intihar hadisələri ilə bağlı “Günün aktual problemi – İNTİHAR” adlı təhlil hazırlanmış və mediada işıqlandırılmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı və Komitənin iştirakı ilə intihar və intihara cəhd edilməsi hadisələrinin baş verməsinin minimuma endirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar yüksək səviyyəli konfrans keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq 19 fevral 2021-ci il tarixində Komitə yanında İctimai şuranın 11 nəfərdən ibarət yeni tərkibinin müəyyən olunması üçün İctimai Şuraya seçkilər keçirilmişdir. Seçkinin yekunu olaraq, sənədləri qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun olan rəsmi qeydiyyata alınmış 21 namizəd arasından 11 nəfər İctimai Şuranın yeni tərkibinə seçilmişdir.

**Komitənin sosial şəbəkələrinə daxil olan və cəmiyyətdə baş verən hadisələr ilə bağlı kütləvi informasiya vasitələrində yayımlanan** (Komitənin səlahiyyətləri çərçivəsinə aid olan hadisələrlə bağlı) 126 müraciətə baxılmışdır. Müraciətlər Komitənin səlahiyyətləri daxilində araşdırılmışdır. 45 müraciət Komitə tərəfindən müsbət həllini tapmışdır.

Komitə tərəfindən və “Qan qohumları arasında nikah və onun fəsadları”, “İnsan alveri”, “Narkomaniyaya YOX deyək”, “Erkən nikah”, “QİÇS ilə mübarizə” mövzularında bukletlər, “Uşaqlara qarşı cinsi zorakılıqla mübarizə” adlı kitabça hazırlanmış və çap edilmişdir. Eyni zamanda Komitə tərəfindən “İnsan alverinə biganə qalma!”, “Ailəmiz – ən dəyərli xəzinəmizdir”, “Təhlükəsiz dünya üçün terrorizmə qarşı birləşək!”, “Övladınızın ən yaxın sirdaşı olun” mövzularında sosial çarxlar hazırlanmışdır.

**Ailə məsələləri sahəsində həyata keçirilmiş fəaliyyətlər.**

Komitənin təşkilatçılığı, Dövlət Komitəsi yanında İctimai Şura, Milli Elmlər Akademiyası, Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin, müxtəlif universitetlər və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə “Azərbaycan Respublikasının Ailələrə dair 2021–2030-cu illər üçün Strategiyası” layihəsinin ilk ictimai müzakirəsi, daha sonra Komitədə və Azərbaycan Milli Elmlər Akademiyasında növbəti müzakirələri keçirilmişdir.

“Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”na uyğun olaraq Komitə və Gənclərin İnkişaf və Kariyera Mərkəzinin təşkilatçılığı ilə “Bərabər hüquqlarımız” adlı layihə çərçivəsində gənclər və Komitənin könüllüləri üçün “Erkən nikahın fəsadları” mövzusunda onlayn təlim keçirilmişdir.

Komitə tərərfindən gənc ailələrə psixoloji dəstəyin verilməsi və ailə dəyərləri haqqında maarifləndirmə işinin gücləndirilməsi məqsədilə psixoloq Elmira Mirzəyevanın iştirakı ilə “Ailə könüllüləri” üçün “Əsas psixo-sosial bacarıqlar və ilkin psixoloji yardım” mövzusunda vebinar keçirilmişdir.

Komitənin təşəbbüsü, Səhiyyə Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində yerləşən orta ixtisas təhsili müəssisələrində gənc və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, gənclərin ailə həyatına hazırlığı, reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində maarifləndirilməsi məqsədi ilə müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə tədbirlər həyata keçirilmişdir. Ümumilikdə tədbirlərdən 732 iştirakçı faydalanmışdır.

Cari yarımildə Komitə tərəfindən Qaradağ və Sabunçu rayon İcra Hakimiyyətləri və Komitənin nəzdində fəaliyyət göstərən Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzi ilə birgə "açıq qapı" günləri aksiyası keçirilmişdir. 3 gün ərzində 3 rayonda 186 ailə aksiyada iştirak edərək, psixoloji, hüquqi və sosial işçi tərəfindən göstərilən xidmətlərdən faydalanmışdır.

"Ailə könüllüləri" layihəsi çərçivəsində "Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyi ilə ilə birgə xeyriyyə tədbiri keçirilmişdir. Tədbir zamanı 9 könüllü ailə tərəfindən 11 tənha insana yardım edilmişdir.

"Ailə könüllüləri" layihəsi çərçivəsində daha bir könüllü proqramının həyata keçirilməsinə başlanılmışdır. Bu proqrama 28 könüllü cəlb edilmişdir. Könüllülər Komitənin müxtəlif fəaliyyətlərinə cəlb olunmuşdur.

**Qadın problemləri və gender məsələləri sahəsində həyata keçirilmiş fəaliyyətlər.**

Komitə tərəfindən hazırlanmış "Azərbaycan Respublikasında Qadın məşğulluğunun təminatı ilə bağlı 2021-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın layihəsinin təqdim oluması məqsədilə işçi qrupunun ilk iclası keçirilmişdir. İşçi qrupuna əsas sənəddə icraçı qismində nəzərdə tutulmuş müxtəlif dövlət orqanlarından nümayəndələr daxil edilmişdir. Müzakirələrlə davam edən iclasda çıxış edən bir neçə dövlət orqanları və vətəndaş cəmiyyətinin nümayəndənləri sənəd layihəsi ilə bağlı rəy və təkliflərini bildirmişdirlər.

Azərbaycan Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə 8 mart – Beynəlxaq Qadınlar Günü münasibəti ilə bir qrup qadınlara Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Bununla bağlı olaraq Komitə təltif edilmiş qadınlara dövlət mükafatlarının təqdimatı tədbirini həyata keçirmişdır. Tədbirdə Azərbaycan elminin və mədəniyyətinin inkişafında öz sözünü demiş, eləcə də ictimai-siyasi sahədə mühüm xidmətləri olan bir qrup qadına Azərbaycan Respublikası Prezidentinn təltifləri təqdim olunmuşdur.

Komitə cari yarımildə Ümummili Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş gənc yazarlar və jurnalistlər arasında keçirilən "Şanlı Zəfər Yolumuz" mövzusuna həsr olunmuş "Ən yaxşı yazı" müsabiqəsi elan etmişdir. Komitə tərəfindən müsabiqənin yekunlarına həsr olunmuş tədbir həyata keçirilmiş, müsabiqə qaliblərinə mükafatlar təqdim olunmuşdur.

Komitə tərəfindən "Gender və insan hüquqları" mövzularında video formatda təlimlər, "Qızların peşə seçiminə hazırlıq" mövzusunda onlayn formatda maarifləndirmə tədbiri həyata keçirilmişdir.

Cari yarımilin may ayından etibarən Komitə və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti arasında "Əməkdaşlıq haqqında Memorandum"un 2.3 bəndinə əsasən "Narkotik ya Həyat, seçim öz əlindədir" adlı baner insanların daha çox istifadə etdiyi ictimai nəqliyyat vasitəsi kimi Metropolitenin stansiyalarında olan elektron tablolarda nümayiş olunmaqdadır.

Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) dəstəyi ilə Dövlət İmtahan Mərkəzinin və Komitənin birgə əməkdaşlığı çərçivəsində hazırlanmış "Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum" sənədə dair beynəlxalq kodun alınması həyata keçirilmişdir. Elmi kod (qrif) alınması məqsədilə Bakı Dövlət Universitetinə məktub göndərilmişdir.

Komitə, "Sağlam Həyat Naminə" İctimai Birliyinin birgə əməkdaşlığı və British Petroleum Şirkətinin maliyyə dəstəyi ilə 2020-ci ildən başlayaraq Tovuz rayonunda "Qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək məqsədi ilə İcmada Ailəyə Dəstək Klubunun yaradılması" adlı layihə həyata keçirmişdir.

Layihə çərçivəsində cari yarımil ərzində seçilmiş, məşğulluğuna dəstək göstəriləcək qadınlar üçün "Özünü təqdim etmə bacarıqları", "Liderlik bacarıqlarının inkişaf etdirilməsi",

“Gender bərabərliyi və insan hüquqları”, “Erkən nikah və məişət zorakılığı”, “Maliyyə savadlılığı” , “Ailə büdcəsinin idarə olunması”, “Biznesin təşkili və idarə olunması” mövzularında təlimlər keçirilmişdir.

Komitə Tovuz Rayon İcra Hakimiyyətinin, “Sağlam Həyat Naminə” İctimai Birliyinin və BP şirkətinin nümayəndələrinin də iştirakı ilə növbəti dəfə 21 nəfər qadına (5 nəfər şirniyyatçı, 7 nəfər bərbərlik, 8 nəfər dərzilik, 1 nəfər dəyirmançılıq fəaliyyəti üçün) biznes fəaliyyətinə başlaması və mövcud bizneslərin gücləndirilməsi üçün qeyri-pul şəklində maddi dəstək göstərilmiş, qadınlar biznes planına uyğun olaraq avadanlıqlarla təmin olunmuşdurlar.

Ümumilikdə layihə çərçivəsində da 2020-2021-ci illərdə 43 nəfər qadına biznes fəaliyyəti üçün dəstək göstərilmiş, avadanlıqlarla təmin olunmuşdurlar.

Komitə Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) dəstəyi ilə 2020-ci ilin sentyabr ayından başlayaraq “Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsi və Qadın Resurs Mərkəzinin yaradılması” layihəsini həyata keçirir.

Cari ilin mart ayında Komitə, Göyçay Rayon İcra Hakimiyyəti və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) nümayəndələrinin iştirakı ilə Göyçay rayonunda Qadın Resurs Mərkəzinin açılışı həyata keçirilmişdir.

Cari yarımil ərzində Göyçay Qadın Resurs Mərkəzində layihə çərçivəsində mikro sahibkarlığına dəstək göstərilmiş qadınlar üçün peşə bacarıqlarının artırılması istiqamətində təlimlər təşkil olunmuşdur.

Komitənin 2021-ci il üçün iş planına əsasən Göyçay rayonundan olan 162 ailəyə (şəhid, qazi, aztəminatlı ailələrə və tənha qadınlara) bayram sovqatları paylanılmışdır.

"Sahibkarlığa və Məşğulluğa İqtisadi Dəstək" layihəsinin "Gender Əsaslı Zorakılıq" komponenti çərçivəsində Qadın Resur Mərkəzlərində hüquqşunas və psixoloq fəaliyyəti başladılmışdır. Üç il müddətində layihə çərçivəsində müraciət edən hər bir şəxs bu fəaliyyətlərdən ödənişsiz yararlanacaqdır.

“Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” layihəsi çərçivəsində Füzuli, Tərtər və Ağcabədi rayonlarında İcma Resurs Mərkəzləri fəaliyyətə başlamışdır.

Zorakılığa məruz qalmış insanların qeydiyyatı artıq başlanılmış və 1 İyul 2021-ci il tarixinə kimi 135 nəfər qeydiyyyatdan keçmışdır.

Eyni zamanda cari yarımildə Komitə tərəfindən Salyan, Sabirabad, Biləsuvar, Neftçala, Masallı, Zaqatala, Qusar, Xaçmaz, Göyçay, Bakı şəhəri Xəzər rayon Qadın Resurs Mərkəzlərinin rəhbərləri ilə görüşlər keçirmişdir.

**Uşaq məsələləri ilə bağlı həyata keçirilən fəaliyyətlər.**

Komitə tərəfindən respublika üzrə bütün şəhər və rayonlardan xüsusi istedadlı uşaqların aşkarlanması, inkişafına dövlət qayğısının gücləndirməsi və onların stimullaşdırması məqsədilə 2019-2020-ci illərdə elm və yüksək texnologiyalar sahələri üzrə ölkə və beynəlxalq səviyyəli bilik yarışlarında, müsabiqələrdə ən yüksək uğurları olan, musiqi və rəsm sahəsində beynəlxalq müsabiqələrdə yüksək mükafatlara layiq görülən, Dünya və Avropa çempionatlarında, Olimpia Oyunlarında, eləcə də digər beynəlxalq əhəmiyyətli turnir və yarışlarda yüksək mükafatlara layiq görülmüş idmançı uşaqlardan ibarət “İstedadlı uşaqlar haqqında məlumat bazası” yaradılmışdır.

Uşaq Səfirlər Məclisinin təşkilatçılığı ilə Abşeron rayonu, Qobu qəsəbəsində və Sabunçu Rayonu Məştağa və Nardaran qəsəbəsində yerləşən tam orta məktəblərin qız

şagirdləri ilə onlayn formatda "Qızlar müzakirəyə qoşulur" adlı maarifləndirici silsilə tədbirlər keçirilmişdir.

Eyni zamanda Komitə tərəfindən görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, akademik, oftalmoloq alim Zərifə xanım Əliyevanın unudulmaz xatirəsinə həsr olunmuş "Vətəni sevək, ona layiq olaq!" layihəsinə start verilmişdir. Ölkənin görkəmli xadimlərinin iştirakı ilə keçirilən silsilələ tədbirlər karantin rejiminin qaydalarına uyğun olaraq onlayn şəkildə həyata keçirilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB), Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi, Komitə və BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə "Erkən Uşaqlıq Dövründə İnkişaf" layihəsi həyata keçirilir. Layihənin əsas məqsədləri 8 yaşadək uşaqların sosial, fiziki və əqli inkişafı, sağlamlığı, düzgün qidalanması, təlim-tərbiyəsi, uşaqlarda inkişaf dinamikasının izlənməsi və inkişafın stimullaşdırılması ilə bağlı valideynləri və digər maraqlı tərəfləri maarifləndirmək, bu sahədə çalışan səhiyyə, təhsil və sosial xidmətlər üzrə mütəxəssislərin potensialını artırmaqdır. Layihənin icrası müddətində həmçinin 4 hədəf regionda – Gəncə və Şirvan şəhərləri, Ağcabədi və Abşeron rayonlarında aidiyyəti qurumlar da cəlb olunmaqla müxtəlif dəyirmi masalar, konfransların təşkili, icma platformasının yaradılması, geniş maarifləndirmə işləri aparılır.

Komitə tərəfindən əməkdaşlıq çərçivəsində Bakı Nəqliyyat Agentliyinə məxsus olan "Baku Bus" ictimai nəqliyyatın reklam monitorlarında ailə, qadın və uşaq məsələlərinə dair məlumatlandırıcı posterlər nümayiş etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı" üzrə nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi, habelə onların icrasının gedişi barədə Komitə tərəfindən hesabatlar hazırlanmışdır. Fəaliyyət Planının 4-cü bəndinin uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı tərəfindən uşaqların müdafiəsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi üzrə işçi qrup yaradılmışdır. 17 qurumun iştirakı ilə Fəaliyyət Planının icrası ilə bağlı yaradılmış işçi qrupun "Zoom" proqramı vasitəsi ilə ilkin iclası keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 268 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nın 1.2-ci bəndində qeyd olunmuş məsələlərlə bağlı olaraq, Komitədə Müsabiqə Komissiyası yaradılmışdır. Müsabiqə proqramı və həmin proqrama uyğun hazırlanmış test tapşırıqlarından ibarət imtahan sualları toplusunun hazırlanmışdır. Qanuna əsasən, Komitə tərəfindən Ekspert Şurası yaradılmışdır.

2018-2020-ci illərdə İraq və Suriya Ərəb Respublikasından Azərbaycan Respublikasına ölkə vətəndaşı olan uşaqlar repatriasiya və deportasiya edilmiş, ailələri tərəfindən qəyyumluq və himayəçiliyə götürülmüşdür. Uşaqların qəyyum ailələrdə ehtiyaclarının müəyyənləşdirilməsi, onların psixo-sosial vəziyyətinin qiymətləndirilməsi və müvafiq xidmətlərlə təmin olunması istiqamətində Komitənin, Beynəlxalq Qızıl Xaç Komitəsinin və BMT-nin Uşaq Fondunun (UNİCEF) həmçinin rayon İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın əməkdaşlarının iştirakı ilə mütəmadi işlər aparılır. Qeyd olunan uşaqların nəzarətə götürülməsi, onların sağlamlığı, sosial müdafiəsi, təhsili, tərbiyəsi və

təhlükəsizliyi baxımından müvafiq qiymətləndirilmələrin aparılması istiqamətində hər 3 aydan bir (hər kvartal) Komitəyə məlumat təqdim edilir və problemlərin həlli istiqamətində işlər görülür.

İnsan alveri qurbanı olmuş 21.11.2007-ci il və 06.08.2009-cu il təvəllüdlü yetkinlik yaşına çatmayan uşaqların vəziyyətinin öyrənilməsi ilə əlaqədar olaraq, Komitə əməkdaşları tərəfindən uşaqların yerləşdirildiyi sığınacağa səfər edilmişdir.

Komitənin təşkilatçılığı, “Atlas” klinikasının təşəbbüsü ilə karantin qaydalarının tələblərinə əməl olunmaqla 10 may – Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş xeyriyyə tədbiri baş tutmuşdur. Komitə tərəfindən həyata keçirilən növbəti aksiyada uşaq sığınacaqlarında yaşayan 30 uşağın həkimlər tərəfindən müayinə və müalicə olunmasına köməklik göstərilmişdir.

Eyni zamanda “Birgə və Sağlam” İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində görüş keçirilmişdir. Tədbirdə uşaqlarda spektr pozuntuları və bu istiqamətdə görülən işlər, ölkə və beynəlxalq səviyyədə autizm sahəsində həyata keçirilən maarifləndirici layihələr haqqında müzakirələr aparılmışdır.

**Regional mərkəzlərin fəaliyyəti çərçivəsində həyata keçirilən tədbirlər.**

Regional mərkəzlərin fəaliyyətlərinin təkmilləşdirilməsi, işçilərin iş keyfiyyətinin yaxşılaşdırlması məqsədilə mərkəzlərə Komitə tərəfindən monitorinq səfərləri edilmiş, monitorinq hesabatı hazırlanmış, monitorinqin nəticələri ilə bağlı mərkəz əməkdaşları məlumatlandırılmışdır.

Cari yarımil ərzində Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə (UADM-lərə) 1717 vətəndaş müraciəti daxil olmuşdur. Müraciətlərdən 974-ü birbaşa, 469-u əlaqələndirmə nəticəsində təmin olunmuşdur.

Eyni zamanda 6 ay ərzində 641 ailəyə səfər edilmiş, 75 keys açılmışdır. Ümumilikdə mərkəzlərdəki keyslərin sayı 2457-dir, onlardan 1867-si uğurlu olmuşdur. Hal-hazırda açıq keyslərin sayı 92-dir.

İcmalarda risk qruplu ailələrdən olan 409 nəfər aşkarlanaraq, müxtəlif xidmətlərə yönləndirilmişdir.

Komitənin nəzdində fəaliyyət göstərən UADM-lərin fəaliyyətindən qeydiyyatsız yaşayan və heç bir güzəştli qrupa aid olmayan ailələr də bəhrələnir. Ümumilikdə belə ailələrin (Şüvəlan, Zaqatala,İsmayıllı,Saatlı, Sabirabad, Göy-Göl-rayonları üzrə) sayı 50 nəfərdir.

Bu ailələrdə ən çox rast gəlinən problemlərdən biri valideynlərin qeyri-rəsmi nigahda olması, uşaqların doğum haqqında şəhadətnamələrinin olmamasıdır. Adətən belə ailələrin müvəqəti məskunlaşdıqları məkanlar heç bir aidiyyəti qurumun balansında olmadığı üçün soyuq hava şəraitində bir çox problemlərlə rastlaşırlar. Ümumiyyətlə bu ailələrdə həm qadına qarşı, həm də uşağa qarşı zorakılıq hallarının baş verməsi müşahidə edilir.

Mərkəzlər tərəfindən bu ailələrə mütəmadi səfərlər edilir, ailələrin vəziyyəti qiymətləndirilir və mərkəzlərin səlahiyyətləri çərçivəsində lazımi dəstək, “Ailədən ailəyə” aksiyası çərçivəsində isə ərzaq və digər yardımlar göstərilir.

Qadınların məşğulluğunun artırılması, onlar arasında kiçik sahibkarlığın inkişaf etdirilməsi, informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə Sabirabad, Zaqatala, Goranboy, İsmayıllı, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən kənd yerlərində yaşayan 100 nəfər qadın üçün vebinarlar keçirilmişdir.

Komitə və Avropa İttifaqının TAİEX layihəsi ilə əməkdaşlıq çərçivəsində “Pandemiya dövründə uşaqların ailələrdə zorakılıq hallarından qorunmasına dair innovativ təcrübələr”

mövzusunda 2 günlük təlimdə uşaqlarla işləyən 170 nəfər mütəxəssis üçün uşaq və ailələrə göstərilən xidmətlərin gücləndirilməsi, uşaq hüquqlarının müdafiəsi üzrə Avropa ölkələrinin qabaqcıl təcrübələri barədə maarifləndirilmişdir.

Avropa Şurasının Uşaq Hüquqları üzrə Daimi Komitəsinin (CDENF) üzv ölkələrdən ibarət ekspertlərinin iştirakı ilə video konfrans formatında həyata keçirilən uşaq hüquqlarının müdafiəsi məsələlərinə həsr olunmuş onlayn görüşlərdə, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi" haqqında Avropa Şurası Konvensiyasının Tərəflər Komitəsinin 30-cu və 31-ci iclaslarında Komitə tərəfindən iştirak təmin edilmişdir.

Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramı çərçivəsində tikintisi başlanılmış İsmayıllı UADM-in yeni inzibati binasında cari yarımil ərzində tamamlama işləri yekunlaşdırılmışdır. Mərkəzin həyətyanı sahəsində abadlaşdırma işləri həyata keçirilmiş, 25 iyun 2021-ci il tarixindən isə mərkəz maddi texniki baza ilə təchiz olunmuşdur.

**Beynəlxalq əlaqələrin inkişafı sahəsində fəaliyyətlər.**

Azərbaycan Respublikasında ilk dəfə olaraq Avropa İttifaqının dəstəyi və BMT-nin Əhali Fondu (UNFPA), Komitə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə onlayn "Gender bərabərliyi" hakatonu keçirilmişdir. Bakı və regionlardan ümumilikdə 16 komanda olmaqla 64 texnologiya həvəskarının iştirak etdiyi hakaton BMT-nin Əhali Fondu (UNFPA) və BMT-nin Qadınlar üzrə Agentliyi (UN Women) tərəfindən icra edilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində təşkil olunmuşdur.

Komitə ilə BMT Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyi arasında 2021-2022-ci illər üzrə Fəaliyyət Planı imzalanmışdır. Fəaliyyət Planı Dayanıqlı İnkişaf Məqsədlərini, eləcə də milli inkişaf prioritetlərini özündə əks etdirən sənədlərin yerinə yetirilməsi, monitorinq və hesabatvermə mexanizmlərinin təkmilləşdirilməsinə töhfə verməsi baxımından böyük əhəmiyyət kəsb edir. Həmçinin, regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri və qeyri-hökumət təşkilatlarının da layihələrin həyata keçirilməsinə cəlb edilməsi vacib məsələlərdəndir.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Azərbaycandakı Nümayəndəliyi tərəfindən Azərbaycan Respublikasında onlayn şəkildə "Selektiv abortun qarşısının alınması və ailənin planlaşdırılması haqqında araşdırma (2-ci il)" başlıqlı KOİCA CİAT Təlim Proqramı təşkil olunmuşdur. Sözügedən təlim proqramında Komitənin 15 əməkdaşı iştirak etmişdir. Təlimin keçirilməsində əsas məqsəd selektiv abortlar və ailə planlaşdırılması mövzusu üzrə biliklərin artırılmasıdır.

Komitə ilə Özbəkistan Respublikası Məhəllə və Ailə Nazirliyinin nümayəndələri arasında onlayn görüş keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd ölkələrin aidiyyəti qurumları ilə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və birgə tədbirlərin keçirilməsidir. Görüşdə əməkdaşlığın gücləndirilməsi, qadınlar arasında məişət zorakılığının, eləcə də boşanmaların qarşısının alınması, ailə dəyərlərinin möhkəmləndirilməsi, QHT-lərin qadınlarla iş sahəsindəki layihələrə cəlb edilməsi məsələləri qeyd edilmişdir.

"Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlığın artırılması 2020-2021" layihəsinin idarə heyətinin 1-ci iclası keçirilmişdir. Burada layihənin icrasına dair yeniliklər təqdim edilmiş, layihənin tərəfdaşlarına layihə üzrə həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir. Layihə çərçivəsində "Qadınlara qarşı zorakılıq, məişət zorakılığı və gender bərabərliyi mövzusunda tvininq metodologiyası" adlı onlayn təlimlər keçirilmişdir.

2021-ci ilin altı ayı ərzində Komitə sədrininİordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Sami Asem Ğoşeh, Böyük Britaniya XİN-də Avropa Qonşuluğu və Amerika üzrə dövlər naziri (nazir müavini) Vendi Morton, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının ölkə nümayəndəliyinin rəhbəri və Yerli İnkişaf üçün Yaxşı İdarəetmə layihəsinin rəhbəri Karin Hoerhan, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Nümayəndəsi Hande Harmancı, BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəsi Edvard Karvardin, Fransa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qros, Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo, BMT-nin Azərbaycandakı Rezident əlaqələndiricisi Qulam İsakzai iləgörüşü təşkil edilmişdir. Görüşlərdə əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi müzakirə olunmuşdur.

**Məişət zorakılığı ilə mübarizə sahəsində tədbirlər.**

Tender elanı vasitəsilə “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın 12.2.2. bəndin icrası ilə bağlı ekspert Abil Bayramov tərəfindən Komitəyə cari ilin ilk üç ayı ərzində ünvanlanmış məişət zorakılığına dair müraciətlərə əsasən araşdırma aparılmışdır. Araşdırma zamanı həmçinin məişət zorakılığına məruz qalmış şəxslər arasında sorğu keçirilmiş, məişət zorakılığı ilə mübarizə proqramlarının iştirakçısı olan vətəndaş cəmiyyəti təmsilçilərinin və vəkillərin rəyləri öyrənilmişdir. Araşdırma üzrə Hesabatda məişət zorakılığının qarşısının alınmasına yönəlik mexanizmlərin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verilmişdir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və “Azərbaycanda məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi” adı altında həyata keçirilən Tvinninq layihəsi çərçivəsində Komitə tərəfindən yerli bələdiyyə orqanlarının Məişət zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qruplarında təmsil olunması imkanları, bələdiyyələr tərəfindən məişət zorakılığı sahəsində görülən işlər, Cinayət Məcəlləsində və Cinayət Prosessual Məcəlləsində məişət zorakılığının kriminallaşdırılması baxımından mövcud olan boşluqlar və edilməli olan mümkün düzəlişlər, Cinayət Məcəlləsi, Cinayət Prosessual Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinə məişət zorakılığının kriminallaşdırılması və məişət zorakılığı qurbanlarına dəstəyin gücləndirilməsi baxımından işlənib hazırlanmış təkliflərlərin təqdimatına dair dəyirmi masalar keçirilmişdir.

Məişət zorakılığından zərərçəkənlər üçün qeyri-dövlət yardım mərkəzlərinin sığınacaqlarında yerləşdirilmiş şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Komitə qurumlararası əlaqələndirməni həyata keçirmiş və onların müdafiəsinin təşkili məqsədilə aidiyyəti qurumlar qarşısından məsələ qaldırmışdır. 2021-ci ilin birinci yarım illiyində rəsmi və işçi qaydasında 22 məişət zorakılığından zərərçəkmiş şəxslə bağlı müraciətlərə baxılmışdır.

Cari yarımil ərzində polis əməkdaşları və prokurorlar, sosial xidmət və təhsil müəssislərinin əməkdaşları üçün “Məişət zorakılığı və risklərin qiymətləndirilməsi” mövzusunda, 20 saatlıq təlim kursu təşkil olunmuşdur.

Təhsil Nazirliyinin dəstəyi ilə Komitə tərəfindən ekspertlərin iştirakı ilə ali təhsil və peşə təhsili müəssisələrində “Məişət zorakılığı ailənin psixoloji iqliminə təsir edən amil

kimi", "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzularında mühazirə və seminarlar təşkil edilmişdir.

Eyni zamanda Komitənin təşəbbüsü ilə İctimai tv-də müzakirə vaxtı, AZTV-də çıxışa doğru televiziya verilişlərində məişət zorakılığından zərərçəkmişlərə qeyri-dövlət yardım mərkəzlərinin nümayəndələrinin, sosial işçilər və vəkillərin iştirakı ilə məişət zorakılığı ilə mübarizə mövzusunda verilişlər hazırlanmışdır.

**Kadr məsələləri ilə bağlı tədbirlər.**

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2020-ci il tarixli, 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının 1.9-cu bəndinə əsasən etik davranış məsələləri ilə bağlı maarifləndirmə işinin aparılması məqsədilə Komitə tərəfindən gənc əməkdaşlar üçün "Dövlət qulluqçularının etik davranış qaydaları" təlimi keçirilmişdir.

**Komitənin 2021- ci ilin ikinci yarımili üçün nəzərdə tutulmuş İş Planı.** "Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Aparatının Fəaliyyətinin Təşkili haqqında" Əsasnaməyə müvafiq olaraq Komitənin 2021-ci ilin ikinci yarımili üçün nəzərdə tutulmuş İş Planının layihəsi hazırlanmışdır. İş Planında ümumi məsələlər, ailə, qadın və uşaq məsələləri, beynəlxalq əlaqələr, hüquqi təminat, informasiya təminatı ilə əlaqədar tədbirlər nəzərdə tutulmuşdur. Planlaşdırılmış tədbirlərin icraçıları qismində Komitənin struktur bölmələri, tabeliyində olan UADM-lər, tədbirlərə cəlb olunması nəzərdə tutulmuş müvafiq dövlət orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar göstərilmişdir.

Məruzə və çıxışları nəzərə alaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci ilin birinci yarımilliyi üzrə İş Planının icra vəziyyəti barədə məlumat nəzərə alınsın qənaətbəxş hesab edilsin.
2. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci ilin ikinci yarımilliyi üçün İş Planı təsdiq edilsin.
3. Ailə problemləri şöbəsinə tapşırılsın ki, "Azərbaycan Ailəsi Strategiyası"nın hazırlanması istiqamətində işləri yekunlaşdıraraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin.
4. Qadın problemləri və gender məsələləri şöbəsinə tapşırılsın ki, Bələdiyyələrdə Gender Komisiyalari ilə bağlı tədbirlərin keçirilməsini təmin etsin və Qadın Resurs Mərkəzləri ilə işi gücləndirsin.
5. Uşaq problemləri şöbəsinə tapşırılsın ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın 4 iyun 2021-ci il tarixli II nömrəli qərarına əsasən təsdiq edilmiş Komissiyanın 2021-ci il üçün Tədbirlər Planının 6-cı bəndinə uyğun olaraq 20 noyabr 2021-ci il tarixdə Uşaqların V Ümumrespublika Forumunun keçirilməsini təmin etsin.
6. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, Komitəyə müraciət etmiş məişət zorakılığı qurbanlarının hüquqlarının bərpasına nəzarəti və yerli rayon icra hakimiyyətlərində yaradılmış "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə" monitorinq qrupları ilə işləri daha da gücləndirsin.
7. Regional mərkəzlərlə iş şöbəsinə tapşırılsın ki, Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyət istiqamətləri üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini

gücləndirsin və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərə yaxın bölgələrdə yaşayan ailələr ilə psixo-sosial işin aparılmasını davam etdirsin.

**8.** Xarici əlaqələr və protokol xidməti şöbəsinə tapşırılsın ki, "Azərbaycanda məişət zorakılığı qurbanlarının dəstəklənməsi və təhlükəsizliyinin təmin edilməsi mexanizmləri üzrə yerli və dövlət qurumlarının potensiallarının gücləndirilməsi" adlı Tvininq layihəsi çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsini, BMT və Avropa Şurasının Komitələrinə hesabatların hazırlanması və təqdim olunmasını, eyni zamanda müvafiq Komitələrin iclaslarında iştirakı təmin etsin.

**9.** Kadr və kargüzarlıq şöbəsinə tapşırılsın ki, Komitəyə daxil olan xidməti sənəd və məktubların icra mexanizminə nəzarəti gücləndirsin.

**10.** İnformasiya və analitik araşdırmalar şöbəsinə tapşırılsın ki, kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığı təmin etsin, Komitənin internet resurslarının təkmilləşdirilməsi ilə bağlı işləri gücləndirsin.

**11.** Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya, aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**